RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

*12 Fevral 2013*

# «Azərbaycanda Azərbaycan torpağı, Kiprdə isə kiprli türklərin qurucu hüquqları işğal altındadır»

**Müsahibimiz Şimali Kiprin qurucusu və ilk prezidenti Rauf Denktaşın oğlu, Şimali Kiprin Milli Məclisin deputatı Sərdar Denktaşdır.**

- **Azərbaycanda bir neçə dəfə olmusunuz. Ölkəmizlə bağlı təəssüratlarınız necədir?**

Azərbaycanın paxtaxtı Bakını bir neçə dəfə ziyarət etmişəm. Hər dəfə paytaxtınıza gedəndə inkişafı, quruculuğu gördükcə sevinirəm. Çox gözəl, tərtəmiz və səliqəli paytaxtınız var. Eyni zamanda, bilirəm ki, Azərbaycan son illərdə böyük yüksəliş və inkişaf yolu keçir və bölgənin liderinə çevrilir. Dost, qardaş ölkənin bu uğurlarını yüksək qiymətləndirirəm.

Azərbaycan kiprli türklər üçün çox yaxın, qardaş dövlətdir. Azərbaycanın sürətlə inkişafı, bölgədəki fəaliyyəti getdikcə daha çox hiss edilir. Azərbaycanda mədəniyyət səviyyəsi yüksəkdir. İnsanları mehriban və çox yaxşı niyyətlidir. Kiprli türklər olaraq azərbaycanlıları özümüzə çox yaxın bilirik. Bu an üçün əlaqələrimizin səviyyəsi yetərincə olmasa da, qarşıdakı illərdə daha çox yaxın və həssas münasibətlər içində olacağımızdan heç bir şübhəm yoxdur

- **Şimali Kiprin mərkəzi, gözəl və ən geniş küçələrindən biri ölkəmizin ümummilli lideri Heydər Əliyevin adını daşıyır. Bunu Şimali Kiprin Azərbaycana, ümummilli liderimizə olan sevgisi kimi qiymətləndirmək olarmı?**

Şübhəsiz ki, bu belədir! Kiprdə Heydər Əliyevi yaxından tanıyırlar, sevirlər və xatirəsini unutmurlar. Qurucu Prezidentimiz Denktaş ilə ümummilli lideriniz Heydər Əliyev arasında çox yaxşı qardaşlıq, dostluq əlaqəsi vardı. Heydər Əliyev Kipri, Kipr türklərini sevirdi, onlara arxa olurdu və atama böyük hörmət, diqqət bəsləyirdi, dəstək göstərirdi. Eyni zamanda Rauf Denktaşın Azərbaycana çox böyük məhəbbəti, Heydər Əliyevə isə bağlılığı vardı. Onlar bir-birilərinə əsl qardaş kimi inanır, etimad göstərir, hörmət edirdilər və daim də arxa olurdular. Tarix bu iki böyük şəxsiyyəti daim yaşadacaq. Çünki onların hər ikisi dövlət qurdular, xalqlarına müstəqillik verdilər, ölkələrinin problemlərini həll etdilər və tarixə də məhz Qurucu Prezidentlər kimi düşdülər.

Heydər Əliyevin itkisi yalnız sizin xalqınız üçün deyil, bütün türklər, o cümlədən kiprli türklər üçün ağır faciə oldu. Atam bu itkiyə çox üzüldü. Mən bilirəm ki, qurucu Prezidentimiz Rauf Denktaşın vəfatına Azərbaycan xalqı və ölkə rəhbərliyiniz də çox üzülmüşdü. Yəni bu

hisslər təbii və ülvidir. Heydər Əliyev kimi möhtəşəm bir şəxsiyyətin xatirəsini əbədiləşdirmək üçün onun əziz adının Kiprin ən geniş küçələrinin birinə verilməsi də məhz qurucu Prezidentimiz Rauf Denktaşın təşəbbüsü, israrı idi. Bu, prezidentlərin dostluqlarının, qardaşlıqlarının səmimi və unudulmaz nişanəsi kimi qavranmalıdır.

- **Sizcə, hər iki ölkə münasibətlərin daha da inkişaf etdirilməsi üçün mövcud potensialdan nə dərəcədə istifadə edir?**

Təəssüf ki, xalqlarımızın bir-birinə duyduğu sevgi və hörmətlə əlaqələrimizin səviyyəsi bir-birilə uzlaşmır. Daha da yaxınlaşmalıyıq, inteqrasiya olunmalıyıq. Bu gün beynəlxalq məkanda Azərbaycanın haqq səsinin yayılmasına necə böyük maneələr yaradırlarsa, Kipr türklərinin müqəddəratına da bir o qədər süni sədlər qoyurlar. Biz siyasi olmasa belə, mədəni və ictimai mənada daha yüksək əlaqələrin inkişafı üçün daha səylə çalışmalıyıq. Bakıda Şimali Kipr təmsilçiliyi var. Əvvəlki dövrlərdə Azərbaycanın Şimali Kiprdə nümayəndəliyinin yaradılmasına yönəlik çalışmalar olsa da, təəssüf ki, bizim ölkəmizdə dəyişən hökumətlər tərəfindən bu istiqamətdə aparılan iş pozuldu. Bu səhvi Şimalı Kipr dövləti olaraq bir an öncə aradan qaldırmalıyıq.

- **Qeyd etdiyiniz kimi, hər iki xalqın ərazi məsələsi ilə bağlı böyük problemləri var. Lakin bəzən bu problemlərin bir-birinə zidd olduğu kimi mülahizələr də səslənir...**

Bəli, bizləri istəməyən, bizlərə düşmən olan məlum qüvvələr tərəfindən Dağlıq Qarabağ münaqişəsi Kipr problemi ilə bənzədilərək sanki bir-birinə zidd olan bir mövzu olaraq göstərilməkdədir. Azərbaycan torpağı olan Qarabağ işğal altındadır. Türk xalqlarına qənim kəsilənlər isə Kipr adasında sanki bizi Kiprin torpağını işğal etmiş kimi göstərirlər. Halbuki Azərbaycanda Azərbaycan torpağı, Kiprdə isə kiprli türklərin qurucu hüquqları işğal altındadır. Yəni ikimiz də eyni dərddə, eyni acıdayıq. Siz torpaqlarınızı, biz haqlarımızı işğaldan qurtarmağa çalışırıq. Bizim indi dövlət qurduğumuz torpaqlar əsrlər boyu ata yadigarı olan torpaqlarımızdır. 1974-cü ilə qədər bizlər də eynilə qarabağlılar kimi ata-baba torpaqlarımızdan uzaqlaşdırılmış köçkünlər idik. Bu səbəbdən qarabağlı qardaşlarımızın vəziyyətini, faciələrini çox yaxşı bilirik. Təəssüf ki, nə Kipr problemi azərbaycanlılar tərəfindən, nə də Dağlıq Qarabağ problemi kiprli türklər tərəfindən dərinliyinə qədər öyrənilməmişdir. Araşdırıldığında görüləcək ki, problemimiz arasında çox böyük bənzərliklər vardır. Bu bənzərliklərin tam olaraq ortaya çıxması ilə birlikdə inanıram ki, əlaqələrimiz də daha yaxşı inkişaf edəcəkdir.

- **Şimali Kiprdə minə yaxın azərbaycanlı tələbə təhsil alır. Ayrı-ayrı universitetlərdə isə təxminən 20-yə yaxın azərbaycanlı professor və müəllim heyəti çalışır. Sizcə, bu potensialdan qarşılıqlı münasibətlərdə tam istifadə olunurmu?**

Mənim azərbaycanlı tələbələrlə də, müəllimlərlə də yaxın, sıx əlaqəm var. Onlarla görüşür, məsləhətləşir, qüvvələrimizi birgə hədəfə yönəltməyin yollarını arayırıq. Dağlıq Qarabağ və Kipr problemlərinin qarşılıqlı əlaqəsi üzərində istədiyim araşdırmanın aparılması üçün əslində çox yaxşı bir potensial meydana gətirilməkdədir. Bu mövzuda tədqiqat aparmağı bəzi azərbaycanlı müəllimlərdən xahiş etmişdim. Hesab edirəm ki, bu müsahibə ilə məlum mövzu yenidən gündəmə gələcək. İnşaallah ən qısa zamanda bu işdə yenidən fəallaşmanın olacağına böyük ümid

bəsləyirəm. Ümumiyyətlə isə, qeyd etdiyiniz yaradıcı və ziyalı potensialdan daha yetərincə və qarşılıqlı bəhrələnməyə böyük ehtiyac var.

**- Necə ki Azərbaycan deyiləndə, Şimali Kiprdə ilk olaraq Heydər Əliyevi düşünürlər, eləcə də bizim vətənimizdə Şimali Kipr deyincə ilk olaraq mərhum atanız Rauf Denktaş yada düşür. Hər iki xalqın, hər iki dövlətin oxşar taleyidir: liderləri dövlətə görə deyil, dövlətləri liderlərə görə tanıyırlar.**

Əlbəttə bu, qürurverici hissdir! Belə insanların övladı olmaq da böyük məsuliyyətdir. Mən bilirəm ki, Prezident İlham Əliyev də belə dahi insanın övladı olduğu və onun siyasətini davam etdirdiyi üçün daha çox məsuliyyətli, diqqətlidir. O anlayır ki, Heydər Əliyevin böyük çətinliklə qurduğu müstəqil Azərbaycanın mövcudluğu və tərəqqisi üçün həm də atasının ruhu qarşısında məsuliyyət daşıyır. Nə yaxşı ki, Prezidentiniz bu borcunu böyük ustalıqla, qabiliyyətlə və şərəflə ödəyir! Bu gün Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın möhtəşəm inkişaf yaşamasının da əsas səbəbi ölkənizin məhz böyük insan Heydər Əliyevin yolu ilə inamla addımlamasıdır.

Atamı itirdikdən sonra mənim üzərimə də çox böyük bir məsuliyyət düşmüşdür. O adı layiqlə yaşatmaq vəzifəsi mənə mənəvi və siyasi miras olaraq qalmışdır. Zənn edilənin əksinə, siyasətə girməm atamın istəmədiyi bir şey idi. Böyük qardaşım Raif siyasətdəydi və mən siyasətdən çox uzaq bir gənclik yaşayırdım. Böyük qardaşımı bir yol qəzasında itirdikdən sonra ona son nəfəsində verdiyim bir söz üzərinə siyasətə girdim. Atama bu düşüncəmi açıqladığımda çox kədərlənmişdi. Buna baxmayaraq atamın xeyir-duasını alaraq girdiyim siyasətdə indi 23-cü ilimi tamamlayıram. Rauf Denktaşın qurduğu dövlətə layiqli xidmət etmək, xalqımızın haqlarını beynəlxalq miyqasda təsbitinə nail olmaq indi mənim üçün həm də atamın ruhu qarşısında bir borcdur...

Müsahibəni hazırladı:

**Cəfər MƏNSİMİ,**

**Şimali Kipr**